GÖZÜMÜN NURU

# NAMAZ



بِسمِ اللهِ الرَّحمنِ الرَّحيم

# NAMAZ

Əziz müsəlman oxucusu, bildiyiniz kimi, namaz dini hökümlər sırasında xüsusi əhəmiyyətə malikdir. Peyğəmbərmizin (s) buyurduğuna əsasən Qiyamət günündə hər kəsin namazı qəbul olunarsa digər savab əməlləri də qəbul olunar. Əks təqdirdə sair əməl və ibadətləri də rədd ediləcəkdir.

Namaz insanları doğruluğa, imana və təmizliyə yönəldən böyük bir ibadətdir. Bu barədə altıncı imamımız İmam Cəfəri Sadiq (ə) belə buyurmuşdur:

"Qiyamət günü Allah dərgahında ən fəzilətli ibadət namazdır".

Namaz insan ruhunun ən ali qidası, saysız hesabsız çətinlik, iztirab və günahlar qarşısında mühüm qoruyucu amildir.

Qurani-Kərimdə buyurulduğu kimi: "Həqiqətən, namaz insanı çirkin və pis işlərdən çəkindirir". ("Ənkəbut",45-ci ayə).

Əziz islam Peyğəmbərimiz həzrəti Məhəmməd (s) namazı dinin sütunu adlandırmışdır.

Beləliklə hər bir müsəlman namaza xüsusi əhəmiyyət verməli, bu yolla öz dünya və axirət səadətini təmin etməlidir.

Hər bir müsəlman gündəlik 24 saat ərzində müəyyən edilmiş şərii vaxtlarda 17 rükətdən ibarət vacib gündəlik namazlarını qılmalıdır.

Əlinizdə olan bu kitabçada namazın qılınma qaydaları sadə və qısa şəkildə göstərilmişdir.

## Namazlar

Namaz ümumi şəkildə iki qismə bölünür: vacib və müstəhəb namazlar.

Gündəlik (yovmiyyə) namazları aşağıdakılardan ibarətdir:

1.Sübh namazı 2 rükət
2.Zöhr namazı 4 rükət
3.Əsr namazı 4 rükət
4.Şam namazı 3 rükət
5.İşa namazı 4 rükət



# Necə dəstəmaz alaq?

Dəstəmaza başlamadan öncə dəstəmaz aldığımız bədən üzvlərimiz təmiz olmalıdır.



**Niyyət:** Dəstəmaz alıram vacib qürbətən iləl-lah demək və ya qəlbdən keçirtmək.

**Üzü yumaq:** Üz, alının tük bitən hissəsindən çənəyə qədər və həmçinin sağ qulaqla sol qulaq arasında olan yerə qədər yuxarıdan aşağı doğru yuyulmalıdır.

**Qolları yumaq:** Öncə sağ qol, sol əlimizlə, sonra da sol qolu sağ əlimizə dirsəkdən barmaqların ucuna qədər yuxarıdan aşağı yuyulmalıdır.



**Diqqət:** Dəstəmazın məsh olunan əzaları gərək pak və quru olsun.



**Başa məsh çəkmək:**

Sağ əlimizin yaşı ilə başın qabaq hissəsindən alına tərəf əl çəkmək.

**Sağ və sol ayaqlara məsh çəkmək:**

Yaş olan sağ əlimizlə sağ, sol əlimizlə də sol ayaq barmaqlarının ucundan topuq hissəsinədək əl çəkmək.



## Hansı işlərdən qabaq dəstəmaz almaq vacibdir?



1. Bütün müstəhəb və vacib namazlar üçün;

2. Bədəninin hansısa bir hissəsini Quranın yazısına toxundurduqda.





3. Allah evinin vacib təvafı üçün;

4. Dəstəmaz alınması ilə bağlı and içildikdə, nəzir və ya əhd edildikdə.

## Dəstəmazda diqqət edək!

- Dəstəmazın suyu pak və mütləq olmalıdır (yəni başqa bir şeylə qarışmamış su ilə olmamalıdır);

- Dəstəmaz qürbət niyyəti ilə (yəni Allahın razılığını qazanmaq qəsdi ilə) olmalıdır

- Dəstəmaz üzvləri pak olmalıdır;

- Dəstəmaz suyunun bədənə yetişməsində mani olmamalıdır.

## Dəstəmazı pozan şeylər

- Kiçik və böyük ayaqyolu;

- Bağırsaqdan xaric olan yel;

- Yatmaq;

- Ağlı və huşu aradan aparan şeylər (dəlilik, məstlik, ürəkkeçmə və s. kimi).

# Neca namaz qılaq!

## Azan:

(Ayaq üstə duran halda)

Allahu əkbər (4 dəfə)

Əşhədu əl-la ilahə illəllah (2 dəfə)

Əşhədu ən-nə Muhəmmədən Rəsuləllah (2)

Əşhədu ən-nə Əliyyən vəliyyullah (2)

Həyyə ələs-səlat (2 dəfə)

Həyyə áləl-fəlah (2 dəfə)

Həyyə əla xəyril-əməl (2 dəfə)

Allahu əkbər (2 dəfə)

La ilahə illəl-lah (2 dəfə)



# İqamə:

(Ayaq üstə duran halda)

Allahu əkbər (2 dəfə)

Əşhədu əl-la ilahə illəllah (2 dəfə)

Əşhədu ən-nə Muhəmmədən Rəsuləllah (2)

Əşhədu ən-nə Əliyyən vəliyyullah (2)

Həyyə ələs-səlat (2 dəfə)

Həyyə ələl-fəlah (2 dəfə)

Həyyə əla xəyril-əməl (2 dəfə)

Qəd qamətis-səlat (2 dəfə)

Allahu əkbər (2 dəfə)

La ilahə illəl-lah (1 dəfə).



# Namaza başlayaq



**Niyyət**

(Ayaq üstə duran halda) "Sübh namazı qılıram vacib qürbətən iləllah" demək ya qəlbdən keçirmək.

**Təkbirətul-ehram:**

(İki əlləri qulaqların yanına tərəf qaldırmaqla) "Allahu Əkbər" demək.



**Qiraət:**

(Ayaq üstə duran halda) Birinci və ikinci rükətlərdə "Fatihə" və "Tohid" surələrini, üç və dörd rükətli namazlarda "Təsbihat" oxumaq

# Fatihə surəsi

*Bismillahir-rəhmanir-rəhim*

*Əl-həmdu lillahi rəbbil aləmin.*

*Ərrəhmanir-rəhim.*

*Maliki yəvmiddin.*

*İyyakə nə-budu və iyyakə nəstəin.*

*İhdinəs-siratəl mustəqim.*
*Siratəlləzinə ən-əmtə əleyhim.*

*Ğəyril məğzubi əleyhim vələzzallin.*



# Tovhid surəsi

*Bismillahir-rəhmanir-rəhim*

*Qul huvəl-lahu əhəd.*

*Allahus-səməd.*

*Ləm yəlid və ləm yuləd.*

*Və ləm yəkul-ləhu kufuvən əhəd.*



# رُكـــوع

## Ruku:

(Əllər dizlərə yetişənə qədər əyilərək)



3 dəfə "Subhanəl-lah" və ya

سُبحانَ ربِّیَ العَظیمِ وَ بِحَمدِه

1 dəfə "Subhanə rəbbiəl əzimi və bihəmdih". demək.



Daha sonra ayağa qalxmaq.

سَمِعَ اللّهُ لِمَن حَمِدَه

"Səmiallahu limən həmidə"

اللّهُ اَكبَر

oxuyub "Allahu Əkbər" deyib səcdəyə getmək

سجده

# Səcdələr:

(Yeddi üzv ilə birgə yerə qapanaraq.)

سُبحانَ رَبِّیَ الاَعلی و بِحَمدِه

"Subhanə rəbbiəl ə-la və bihəmdih"

ya 3 dəfə "Subhanəl-lah"
demək.



Səcdədə alın möhürə, iki əllərin içi, iki diz qapaqları və iki ayağın baş barmaqları yerə qoyulmalıdır.



Hər səcdəyə gedərkən və səcdədən qalıxarkən

اللّهُ اَکبَر

"Allahu əkbər"
söyləmək müstəhəbdir

İkinci səcdədən sonra ayağa qalıxarkən yaxşı olar aşağıdakı zikr deyilsin.

"Bihəvlillahi və quvvətihi əqumu və əqud"

بِحولِ اللّهِ وَ قُوَّتِهِ اَقومُ وَ اَقعُد

Sonra Ayaq üstə ikinci rükət yerinə yetirilir.

Yenə Fatihə və Tövhid surələri oxunur



QUNUT:

(İkinci rükətdə Fatihə və Tovhid surələrindən sonra iki əllərin içini üzümüz önündə tutaraq)

Bu halda dualardan birini oxuyuruq.

رَبَّنا اتِنا فِى الدُّنيا حَسَنَةً وَ فى الاخِرَةِ حَسَنَةً وَ قنا عَذابَ النّار

Məsələn " Rəbbəna atina fid-dunya həsənətən və fil-axirəti həsənə və qina əzabən-nar"

Sonra birinci rükətdə olduğu kimi Ruku və Səcdələr yerinə yetirilir.

## Təşəhhüd:

(ikinci səcdədən sonra dizi üstə əyləşən halda)



## Təşəhhüd zikri

اَشهَدُ اَن لا اِلهَ اِلّا اللّهُ وَحدَهُ لا شَریکَ لَهُ
وَ اَشهَدُ اَنَّ مُحَمَّداً عَبدُهُ وَ رَسولُه
اَللّهُمَّ صَلِّ عَلی مُحَمَّدٍ وَ آلِ مُحَمَّدٍ

Əlhəmdu lillah, əşhədu əlla ilahə illəl-lah, vəhdəhu la şərikə ləh. Və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluh, Allahummə salli əla Muhəmmədin və ali Muhəmməd.

## Təsbihat ərbəə:

سُبحانَ اللّهِ وَ الحَمدُ للّهِ وَ لا اِلهَ اِلّا اللّهُ
وَ اللّهُ اَكبَر

Təşəhhüddən sonra ayağa qalxıb üç dəfə oxunur:

" Subhanəllahi vəl-həmdu lillahi və la ilahə illəllahu vallahu əkbər"



Sonra ruku və səcdələr etməklə üçüncü rükət bitirilir.
Dördüncü rükət üçün ayağa qalxıb təkrar Təsbihat-ərbəə oxunur.

Sonra ruku və səcdələr edilir.

سُبحانَ اللّهِ وَ الحَمدُ للّهِ وَ لا اِلهَ اِلّا اللّهُ
وَ اللّهُ اَكبَر

Təsbihat-ərbəə yerinə bir dəfə Fatihə surəsi oxuna bilər.

Son rükəttdə iki səcdədən sonra "Təşəhhüd" və sonda da "Salam" oxunur.

Əlhəmdu lillah, əşhədu əlla ilahə illəl-lah, vəhdəhu...

اَشـهَدُ اَن لا اِلـهَ اِلّا اللّهُ وَحدَهُ لا شَـريكَ لَهُ وَ اَشهَدُ اَنَّ مُحَمَّداً عَبدُهُ وَ رَسولُه اَللّهُمَّ صَلِّ عَلی مُحَمَّدٍ وَ الِ مُحَمَّدٍ



## Salam

اَلسَّلامُ عَلَیکَ اَیُّهَا النَّبِیُّ وَ رَحمَةُ اللّهِ وَ بَرَکاتُهُ

اَلسَّلامُ عَلَینا وَ عَلی عِبادِ اللّهِ الصّالِحین

اَلسَّـلامُ عَلَیـکُم وَ رَحمَـةُ اللّهِ وَ بَرَکاتُهُ

Əssəlamu əleykə əyyuhən-nəbiyyu
və rəhmətullahi və bərəkatuh.
Əssəlamu əleynə və əla ibadillahis-salehin.
Əssəlamu əleykum və rəhmətullahi
və bərəkatuh.

# Namazı pozan əməllər



*Namazda bir neçə şeyə diqqət yetirmək lazımdır.*

*Namaz halında qiblədən üz döndərməmək;*

*Namaz halında danışmamaq;*

*Namaz halında qəh-qəhə ilə gülməmək;*

*Həmd və surədən sonra amin deməmək;*



*Namaz qılarkən əlləri bir-birinin üstünə qoymamaq və s.*

*Qızlar və qadınlar həm namaz qılarkən, həm də başqa vaxtlarda dini örtüyə riayət etməlidirlər.*



Dünya üçün ucadan ağlamaqdan çəkinmək.

(Qeyd olunanların hamısı namazı batil edir (pozur).



Namaz halında yemək və içməkdən uzaq olmaq.

Namazı pak yerdə qılmaq. Qəsbi yerdə (icazəsiz başqasının məkanında) qılmamaq.

Namazı pak paltarda (9 nəcasətə toxunulmamış) paltarda qılmaq.

# SÜBH namazı

*(Sabah azanından gün çıxana qədər qılınır)*

***Sübh namazı 2 rükətdir,***

***Azan və İqamədən oxuduqdan sonra qılınma qaydası belədir:***

**1-Niyyət:** “Sübh namazı qılıram vacib qürbətən iləllah” sözünü qəlbdən keçirtmək və ya demək .

**2-Təkbirətul-ehram:** “Allahu əkbər” demək.

**3-Qiraət:** (Fatihə və Tovhid surələrini ardıcıl ayaq üstə oxumaq).

**4-Ruku:** (Əllər dizlərə yetişənə qədər əyilərək).

**5- Səcdələr:** Yeddi üzv ilə yerə örtünmək.

**6- Qiraət:** (3-cü əməldəki kimi).

**7- Qunut:** (Əllərin içini önümüzdə tutaraq dua oxumaq).

**8-Ruku:** (4-cü əməldəki kimi).

**9-İki səcdə:** (5-ci əməldəki kimi).

**10-Təşəhhüd:** (ikinci səcdədən sonra dizi üstə əyləşən halda) oxuyuruq.

**11-Salam:** Təşəhhüddən sonra eyni vəziyyətdə oxuyuruq.

***(Sonra üç dəfə təkbirlə namazı tamamlayırıq).***

# ZÖHR namazı

*(Günorta azanından Gün batana (Əsr namazının fəzilətli vaxtına qədər qılınır))*

**Zöhr namazı 4 rükətdir, qılınma qaydası belədir:**

**1-Niyyət:** "Zöhr namazı qılıram vacib qürbətən iləllah" sözünü qəlbdən keçirtmək və ya demək .

**2-Təkbirətul-ehram:** "Allahu əkbər" demək.

*Təkbir dedikdən sonra eynilə Sübh namazı kimi qılınır, lakin təşəhhüddən sonra salamı demədən ayağa qalxaraq üçüncü və dördüncü rükətləri aşağıda göstərilən şəkildə tamamlayırıq:*

**3-Təsbihat:** 3 dəfə ayaq üstə oxunur
**4-Ruku.**
**5- İki səcdə.**

**İkinci səcdədən qalxdıqdan sonra bir daha ayağa qalxır və üçüncü rükət kimi dördüncü rükəti belə qılırıq:**

**6-Təsbihat.**
**7-Ruku.**
**8-İki səcdə.**
**9-Təşəhhüd.**
**10-Salam**



**(Sonra üç dəfə təkbirlə namazı tamamlayırıq).**

## ƏSR namazı

*(Zöhr namazından sonra gün batana qədər)*

Əsr namazının qılınma qaydası eynilə 4-rükətli Zöhr namazı kimidir. Lakin fərqi təkcə niyyətindədir. Bu namazın niyyəti belədir: *"Əsr namazı qılıram vacib qürbətən iləllah"*.

## ŞAM (Məğrib) namazı

*(Şam azanından İşanın fəzilətli vaxtına qədər)*

*Məğrib namazı 3 rükətdir. Bu namazın qılınma qaydası belədir:*

*Niyyət: "Şam və ya Məğrib namazı qılıram vacib qürbətən iləllah".*

*Niyyətdən sonra bir və ikinci rükətləri eynilə Sübh namazı kimi qılınır, amma 2-ci rükətdə təşəhhüddən sonra salamı demədən ayağa qalxıb 3-cü rükəti qılmağa başlayırıq.*

*Şam namazının 3-cü rükəti, Zöhr və Əsr namazının 3-cü rükəti kimi qılınır.*

*Şam namazının 3-cü rükətində iki səcdəni yerinə yetirdikdən sonra təşəhhüd və salam deyilir və üç dəfə "Allahu əkbər" dedikdən sonra namaz tamamlanır.*

## İŞA namazı

*(Məğrib namazından sonra gecə yarısına qədər)*

*İşa namazı da 4 rükətli Zöhr və Əsr namazları kimi qılınır. Bu namaz da təkcə niyyətdə fərqlənir. İşa namazının niyyəti belədir:*
*"İşa namazı qılıram vacib qürbətən iləllah".*

*Qeyd etməliyik ki, Sübh, Məğrib və İşa namazla-rında kişilər Fatihə və Tohid surələrini ucadan, Zöhr və Əsr namazlarını, həmçinin Şam və İşa namazlarının təsbihatlarını astadan oxumalıdırlar.*

# Fərəc duası

بسم الله الرحمن الرحيم

اللّـــهُمَّ صَلِّ عَلى مُحَمَّد وَآل مُحَمَّد

اَللّهُمَّ كُنْ لِوَلِيِّكَ الْحُجَّةِ بْنِ الْحَسَنِ

صَلَواتُكَ عَلَيْهِ وَعَلى آبائِهِ

في هذِهِ السّاعَةِ وَفي كُلِّ ساعَةٍ

وَلِيّاً وَحافِظاً وَقائِداً وَناصِراً وَدَليلاً وَعَيْناً

حَتّى تُسْكِنَهُ أَرْضَكَ طَوْعاً وَتُمَتِّعَهُ فيها طَويلاً

**İmam Məhdi Sahibəz-Zəmanın (ə.c) qeybdə olduğu zamanda bu dua oxunulur:**

*Bismillahir-rəhmanir-rəhim*
*Allahummə kun livəliyyikəl-Höccətibnil-Həsən, sələvatukə ələyhi və əla abaih, fi hazihis-saəti və fi kulli saəh, vəliyyən və hafizən və qaidən və nasirən və dəlilən və əyna hətta tuskinəhu ərzəkə təvəa və tuməttiəhu fiha təvila. Birəhmətikə ya ərhəmər-rahimin.*

## MÜSAFİRİN namazı

*Şəriətimizin qanunlarına əsasən, hər hansı bir şəxs məskunlaşdığı yerdən, yəni məntə-qədən, kənddən və ya şəhərdən 22,5 km. uzaqlaşarsa, gündəlik dörd rükətli namazlarını qəsr, yəni iki rükət qılmalıdır. Həmçinin, qeyd olunan məsafə qədər yaşadığı yerdən uzaqlaşdıqda, oruc tutmaq da, qadağandır. Lakin aşağıdakı hallarda insan səfərdə olmasına baxmayaraq, gündəlik namazlarını tam qılmalı və səfər Ramazan ayına təsadüf edərsə, oruc da tutmalıdır:*

*- Haram buyrulmuş işləri yerinə yetirmək üçün səfər etdikdə;*

*- Səfər etdiyi yerdə on gün və daha artıq qalmağını planlaşdırdıqda;*

*- Daim çalışdığı hər hansı bir müəssəyə işləmək məqsədi ilə getdikdə (hətta ən azı 10 gündə bir dəfə getsə belə);*

*- İşləyən şəxsin sənəti səfər etməkdən ibarət olduqda; məsələn, sürücü kimi.*



# MÜSTƏHƏB NAMAZLAR

*Müstəhəb namazlar çoxdur və bu namazlar "nafilə" adlanır. Bu nafilələrdən biri gün uzunu qılınan nafilələrdir və onlar cümə günü 38, digər günlər 34 rəkətdir. Onlardan biri də gecə vaxtı qılınan və hədislərdə fəziləti çox sifariş olunan Gecə namazıdır.*

*Gecə namazı 11 rəkətdir və aşağıda göstərilən şəkildədir:*

*1. Sübh namazı kimi iki rəkətli dörd namaz. Bu namazlar gecə namazı niyyəti ilə qılınır.*

*2. Əvvəlki dörd namaz kimi ikirəkətli şəf' namazı.*

*3. Sonda "vətr namazı" niyyəti ilə qılınan bir rəkət namaz. Bu namazın niyyətindən sonra həmd və surə oxunur, qunut tutulur. Qunutda möminlərə də dua edilir. Sonra rükuya gedilir, rükudan sonra iki səcdə yerinə yetirilir. Vətr namazı təşəhhüd və salamla başa çatır.*

*Qeyd etməliyik ki, bu namazlarda azan və iqamə yoxdur. Gecə namazlarının istənilən birində 2-ci rəkətdə rükudan öncə qunut tutub dua etmək, raz-niyaza məşğul olmaq mümkündür. Şəf' namazında savab ümidi ilə ehtiyatən qunut tutulur. Vətr namazında isə qunut nə qədər uzun olarsa bir o qədər faydalıdır.*

*Gecə namazının vaxtı gecə yarıdan sübh azanınadəkdir. Bu namazı sübh azanına yaxın bir vaxtda qılmaq daha yaxşıdır. Səfərdə olan və ya bu namazı vaxtında qılmağa çətinlik çəkən şəxs onu gecənin əvvəlində qıla bilər.*

Pak olan qəlbə qida, ruha şəfaətdi Namaz.
Şəriət hökmünə, əlbəttə itaətdi Namaz.
Səcdə et, yığ yükü üstünə, sərvətdi Namaz.
Allaha səcdədi, Peyğəmbərə hörmətdi Namaz.

O namaz ki, onu vaxtı ilə Peyğəmbər (s) qılmış,
Tanrının sirri, o həqq aşiqi Heydər (ə) qılmış,
11 övladı ilə Fatimə (ə) yeksər qılmış.
Dur qoşul sən də bu sıx cərgəyə, vəhdətdi Namaz.
Allaha səcdədi, Peyğəmbərə hörmətdi Namaz.

O namaz ki, onu göylərdə mələklər də qılır.
Rəbbinə səcdə edən bəndələr hər yerdə qılır.
Dəstə-dəstə yığılıb Kəbəyə, bir yerdə qılır.
"Müstəqim" yol ki, deyirlər, ona dəvətdi Namaz.
Allaha səcdədi, Peyğəmbərə hörmətdi Namaz.

Tanrı nur yaradıb zülməti tərk etmək üçün,
Zülməti xəlq elədi, fərqini dərk etmək üçün.
Namaz əmr oldu ki, bəd işləri tərk etmək üçün,
Ədəb-ərkandı mərifət, həya-ismətdi Namaz.
Allaha səcdədi, Peyğəmbərə hörmətdi Namaz.

Tövbə et keçmişinə, bəlkə də ömrün var hələ,
Hər namaz vaxtı sən də tələs bu xeyir əmələ,
Qibləyə üz tutaraq, üz-üzə dur Rəbbin ilə,
Aşiqin məşuq ilə etdiyi söhbətdi Namaz.
Allaha səcdədi, Peyğəmbərə hörmətdi Namaz.